***Natəvan Hacıyeva tərəfindən yazılmış "Azərbaycanda yeni tarixi dövr və dil məsələləri" adlı monoqrafiyası işıq üzü görüb.***

Natəvan Hacıyeva tərəfindən yazılmış "Azərbaycanda yeni tarixi dövr və dil məsələləri" adlı monoqrafiyası bədii mətnlərin dilinə aid edilib. Azərbaycanda Müstəqillik dövrünün təkcə tarixi baxımdan deyil, həm də dil baxımından konkret tarixi dövr və onun dildə izləri məzmun və ifadə planının təzahürü kimi sosiolinqvistikada böyük maraq doğurur. Müstəqillik illərində yaranan ədəbi mətnlərin dövrlər üzrə müqayisədə prinsipcə bir-birindən kəskin fərqi yoxdur; lakin bəzi leksik vahidlərin bu kontekstdə yeni semantik çalarlar qazanması, bəzi şəkilçi morfemlərinin işləklik xüsusiyyətinin aktivləşməsi və ya zəifləməsi, eləcə də bəzi sintaktik səviyyə vahidlərində dövrlərə görə nəzərə çarpan dəyişikliklərin dilin inkişafı kontekstində nəzərdən keçirilməsinin linqvistik cəhətdən xüsusi əhəmiyyəti vardır.

Bu mənada qeyd olunan monoqrafiya çox aktualdır. O, giriş , üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Monoqrafiyada təqdim olunmuş mövzu elmi-nəzərəi və praktiki baxımdan çox dolğun şəkildə öz əksini tapmışdır. Girişdə mövzunun aktuallığı əsaslandırılır. Mövzu üzrə ayrılan fəsillər və onların yarımbaşlıqları məntiqi ardıcıllıqla verilmişdir. Aparılan təhlillər və nəzəri fikirlər üzrə müvafiq əsərlərdən gətirilən nümunələr inandırıcıdır. Müəllif elmi əsaslara söykənməklə mövzunu çox yığcam və elmi şəkildə təqdim edə bilmişdir. O, elmi ədəbiyyatlarlardan layiqincə yararlana bilmiş, yeri gəldikcə lazımi sitatlardan istifadə etmiş və onlara müraciət istiqamətini çox düzgün müəyyənləşdirə bilmişdir. Monoqrafiyanın dili aydın, səlis və dolğundur, elmi anlayışlar dəqiq terminlərlə ifadə olunmuşdur. Bu əsasda da mövzu ilə bağlı tam, bitkin məlumat əldə olunur.

Qeyd olunan müsbət keyfiyyətləri əsas tutaraq, Hacıyeva Natəvan Havar qızının "Azərbaycanda yeni tarixi dövr və dil məsələləri" adlı monoqrafiyası çox faydalı elmi əsər kimi dəyərləndirilir.